**Respublikamızın müxtəlif bölgələrində keçirilən festival və yarışmalarda rayonumuzun təmsilçiləri həmişə uğurla çıxış ediblər. Onlar bu müsabiqələrdən laureat adı ilə, fəxri diplomlarla geri qayıdaraq yalnız Bərdə şəhər 2 saylı Uşaq Musiqi Məktəbinin kollektivinin deyil, həm də rayon mədəniyyət və turizm şöbəsinin etimadını doğrultdular.**



# İstedadlarımızla fəxr edirik

**"Muğam-2005" müsabiqəsinin qalibi, gənc istedadlar içərisində muğam üzrə ilk Prezident təqaüdçüsü adını alan, respublika muğamsevərlərinin yaxşı tanıdığı Pərvaz İbrahimli 2 saylı Uşaq Musiqi Məktəbinin yetirməsi kimi bütün bərdəlilərin sevimlisidir.**

Məktəbin III sinif şagirdi Orxan Mirzəyev də Bakı şəhərində keçirilən I Beynəlxalq Uşaq Muğam festivalının yekun turunda rayonumuzu layiqincə təmsil edərək daha bir uğura imza atmışdır. Münsiflər heyətinin yekdil rəyinə əsasən Orxan Mirzəyev festivalın diplomantı adına layiq görülmüşdür.

Dərslərində çox intizamlı, tərbiyəli olan Orxanın bu uğurunda müəllimi Maarif Məmmədovun zəhməti böyükdür. Şagirdlərinə böyük tələbkarlıqla yanaşan Maarif müəllim Orxana da muğam sənətinin bütün incəliklərini sevə-sevə öyrədir.

**Bərdə**

Onun gələcəyinə böyük ümidlər bəsləyən Maarif müəllim Orxanın bacarığından, fərasətindən olduqca razıdır. Maarif müəllim daim şagirdlərinə faydalı məsləhətlər verir, öz üzərlərində daha çox çalışmağı tövsiyə edir, muğam sənətinin bütün incəliklərinin öyrənilməsi üçün onlara qəlbinin hərarətini əsirgəmir.

Səhnədə olduqca arıq, çəlimsiz görünən bu uşağın səsi, zəngulələri bir andaca tamaşaçıların diqqətini özünə cəlb edir. Xalq mahnılarımız, muğamlarımız Orxanın ifasında o qədər gözəl, səmimi alınır ki, istər-istəməz bu səsi bir daha dinləmək istəyirsən.

Orxan Mirzəyev qazandığı bu uğurlara görə rayonumuzda da qiymətləndirilərək YAP-ın Bərdə rayon təşkilatı və icra hakimiyyəti tərəfindən Fəxri fərman və qiymətli hədiyyələrlə mükafatlandırılmışdır.

Məktəbin daha bir şagirdi Emil Namazov Mingəçevir şəhərində keçirilən Milli musiqi alətləri ifaçılarının IV respublika müsabiqəsində tarda gözəl ifasına görə fərqləndiyi üçün fəxri fərmanla geri qayıdaraq müəllimlərini çox sevindirmişdir.

Xırda xanım Ağayevanın rəhbərlik etdiyi bu məktəb 1986-cı ildən fəaliyyət göstərir. Məktəbdə 334 şagird təhsil alır. Fortepiano, tar, kamança, qarmon, nağara, saz, muğamsəs şöbəsində təhsil alan bu şagirdlərin təhsili ilə 77 müəllim məşğul olur. Qabaqcıl müəllimlərdən Svetlana Hüseynova (fortepiano), Xəyalə Xuduyeva (fortepiano), Zakir Hüseynov (tar), Namiq Hüseynov (qarmon), Emin Mürsəlov (qarmon), Müzəffər Şükürov (saz) öz bilik və bacarıqlarını şagirdlərinə sevə-sevə öyrədirlər. Müvəffəqiyyətlərin qazanılmasında fortepiano şöbəsinin müdiri Nəzakət Ağayeva kimi işinə məhəbbətlə yanaşan müəllimənin xüsusi rolu var.

Məktəbin qarmonçalanlar ansamblı və xor kollektivi də öz maraqlı fəaliyyəti ilə diqqət çəkir.

**● Gülbəs Məmmədova,**
**zona müxbirimiz**